**Uzun müddət Akademik Milli Dram Teatrının truppa müdiri işləmiş, hazırda özü də haqq dünyasına qovuşmuş Qürbət Qurbanovun xatirələrindən:**

– Mehdi Məmmədov Akademik Dram Teatrının səhnəsində 21 tamaşaya quruluş verib. Bu teatrda onun birinci işi Şekspirin "12-ci gecə", son işi isə Cavidin "İblis"i olub.

Bir dəfə "İblis"in məşqləri gedirdi, fasilədə mənim otağıma gəlmişdi. Dedi ki, görəsən aktyoru teatra götürəndə bir fikir verməzlər ki, bu oxuyub-oynaya bilir, yoxsa yox. Dedim ki, Mehdi müəllim, səhnədəki aktyorların hamısı İncəsənət İnstitutunun məzunlarıdır. Müəllimlər beş ildə bunu bilməyiblərsə, biz bir-iki ildə haradan bilək? Cavab vermədi. Gülümsəyib otaqdan çıxdı. Mehdi müəllim çox xeyirxah, qayğıkeş insan idi. 1960-cı ildə Adil İsgəndərov işdən çıxarılandan üç gün sonra da məni işdən azad etdilər. Onda Mehdi Məmmədov baş rejissor təyin edilmişdi. O, Əjdər Sultanov və Həsənağa Salayevlə birlikdə direktorun yanında olurlar ki, Qürbəti niyə işdən çıxarmısınız, yeni mövsüm açılana qədər onu teatra qaytarın. Belə də oldu. Mehdi müəllim məni teatra qaytardı.

**Xalq artisti Ramiz Məlikov:**

– Mehdi Məmmədovun mənim bir aktyor kimi formalaşmağımda böyük zəhməti olub. Mən onun üç böyük tamaşasında ("Xəyyam", "Dəli yığıncağı", "İblis") oynamışam. Teatrda işlədiyim müddətdə bu ta-





# Mehdi Məmmədov

**SSRİ xalq artisti, respublika dövlət mükafatı laureatı, görkəmli rejissor, gözəl müəllim və səmimi insanın ölümündən bizi 20 il ayırır...**

***O müdhiş gün 1985-ci il yanvarın 28-nə təsadüf edir. Gündüz saat 12-yə qalırdı. Sənətsevərlər, ailəsi, dostları ondan nə gözləyirdilər, amma nə gördülər. İndi istəsək də, istəməsək də bu görkəmli rejissor haqqında keçmiş zamanda danışmalıyıq.***

maşalar mənim üçün böyük həyat məktəbi olub. Dörd il institutda təhsil alsam da, o tamaşalar mənim üçün həqiqi sənət məktəbi idi. Mehdi müəllim "İblis"də Arif rolunu mənə tapşırdı. Bu rolu yaratmaqda onun böyük qayğısını gördüm. Bəlkə də o qayğı olmasaydı bu obraz istənilən səviyyədə alınmazdı. O, aktyorla çox səbrlə işləyirdi. Mehdi müəllimin bir aktyorun üstünə səsini qaldırdığını hələ eşitməmişdim. O deyirdi ki, aktyor səhnədə özünə, öz hərəkətlərinə inanmırsa, tamaşaçını heç vaxt inandıra bilməz. Mehdi müəllim çox ciddi adam idi. Biz nadir hallarda onun gülümsədiyini görərdik. "Dəli yığıncağı" tamaşasına ictimai baxış olanda Mehdi müəllim xəstəxanada idi. Tamaşa böyük uğurla keçdi. Oğlu Elçin deyirdi ki, bunu eşidəndə onun sevincdən gözləri yaşarmışdı. Sonra özü də baxdı. Onu təbrik etdilər. O gördü ki, zəhməti hədər getməyib. Mən Mehdi müəllimin sevincini o vaxt gördüm.

**Tanınmış teatrşünas İlham Rəhimli:**

– Mehdi müəllimlə ilk tanışlığım 1968-ci ildə olub. O, mənə İncəsənət İnstitutunda dərs deyirdi. O vaxt aramızda ancaq tələbə-müəllim münasibəti olub. Mehdi müəllimin xarakterində mənim üçün maraqlı olan bir cəhət var idi. Demək olar ki, onun heç vaxt auditoriyada üzü gülməzdi. Birdən maraqlı hadisə olurdu, üzünə təbəssüm qonurdu, istəyirdi ki, gülsün. Tez özünü "yığışdırırdı", hiss edirdin ki, boğazının damarları şişir. Beləcə təbəssümü öz içində boğurdu. Onu da deyim ki, gülmək Mehdi müəllimə çox yaraşırdı.

İş elə gətirdi ki, institutu bitirəndən sonra indiki "Xalq qəzeti"ndə işə başladım. Mehdi müəllimlə tez-tez, ən çox da bayramlarda görüşür, ondan müsahibələr götürürdüm. Bir dəfə ona sual verdim: "Mehdi müəllim, həyatda çox ciddisiniz, bəs necə olub ki, yaradıcılığınızda ən geniş şöhrət tapmış tamaşalarınız ilk növbədə komediyalardır?". Başladım sadalamağa: Gəncə teatrında "Nə yardan doyur, nə əldən qoyur" (Lope de Veqa), "O olmasın, bu olsun" (Üzeyir Hacıbəyov), Akademik teatrda "12-ci gecə" (Şekspir), "Yağışdan çıxdıq, yağmura düşdük" (Nəcəf bəy Vəzirov), "Əliqulu evlənir" ( Sabit Rəhman), "Kəndçi qızı" (Mirzə İbrahimov), "Meyxana sahibəsi" (Karlo Holdoni)... Mehdi müəllim mənalı-mənalı üzümə baxdı, şakəri üzrə xeyli pauza verdi. Nəhayət, dilləndi: "İlham Rəhimli, məlumun olsun ki, həyatda qənaətlə yığıb saxladığım yumoru səhnədə böyük səxavətlə "xərcləyirəm"...

Həmin vaxtlar mənim Mehdi müəllimlə o qədər də ünsiyyət yaxınlığım yox idi. Amma onun özünə çox yaxın bildiyi dostları vardı. Onların içərisində ən çox Zəfər Nemətov və Qulu Əsgərovla söhbəti tutardı. Qulu Əsgərov gözəl xanəndə olmaqla bərabər, həm də çox zarafatcıl adam idi. Mehdi müəllimin ağır təbiətli olmasına baxmayaraq, onların söhbətləri alınırdı. Hətta bir neçə dəfə məclislərdə onların şaqqanaq çəkib güldüklərini də görmüşdüm. Tələbəlik illərini başa vurandan sonra Mehdi müəllim haqda məqalələr də yazdım, müsahibələrim də oldu, televiziya və radio verilişləri də hazırladım. Mehdi müəllim yaşca ondan aşağı olan həmsöhbətləri ilə həmişə "sərhəd" saxlayırdı və o "sərhəddi" keçmək mümkün olmurdu. Olsa da çox çətin başa gəlirdi. Sən də istər-

istəməz hər dediyin sözü ölçüb-biçirdin. Sizə kiçik bir hadisə danışım. Sovet dövründə xarici ölkələrə gedəndə də, qayıdanda da mütləq Moskvadan keçirdik. Dəqiq yadımda deyil, ya 1975, ya da 76-cı ilin sentyabrı idi. Növbəti dəfə xarici ölkəyə turist səfərindən qayıdırdım. "Moskva" mehmanxanasında qalırdım. Günorta təzəcə nahar etmişdim, süfrədəki qrafində bir az araq qalmışdı. Birdən gördüm ki, Mehdi müəllim asta-asta restorana daxil olur. Ayağa durub onunla görüşdüm. Və öz stoluma dəvət etdim. Xidmətçi qadını çağırdım ki, Mehdi müəllim sifariş versin. O, sifarişini verəndən sonra mən çəkinə-çəkinə dedim: "Mehdi müəllim, bəlkə araq da gətirsin, bura uzaq yerdir, sizin də yəqin işiniz yoxdur". Qaşlarını dartdı, altdan yuxarı mənə baxdı. Yenə pauza verib dedi: "İlham, müəllimin tələbəsi ilə araq içməsi qəbahətdir... Ancaq bir az konyak olar". Orada da Mehdi müəllim ciddiliyini və aramızdakı yaş fərqini büruzə verərək, incə zarafatından qalmadı.

O dövrdə qəzetçilikdə belə bir ənənə var idi ki, bayramlarda təbrik və ürək sözlərini ancaq tanınmış, görkəmli adamlar deyə bilərdilər. Mehdi müəllim də təbii ki, öz zamanında Azərbaycan mədəniyyət və incəsənətinin ən samballı öndərlərindən biri sayılırdı. Ona görə də onunla görüşüb müsahibə götürməyi bəzən mən özüm istəyirdim, bəzən də redaktordan rəsmi göstəriş alırdım. Mehdi müəllimin yuxarı dairələrdə, ictimaiyyət arasında böyük nüfuzu vardı. O, özünün şəxsiyyət bütövlüyü, kamilliyi, savad dairəsi, estetika və fəlsəfəyə bələdçiliyilə həmişə seçilirdi. Mənim marağıma əsas səbəb də bu idi.

Mən heç vaxt görmədim, Mehdi müəllim kimdənsə, lap elə mən tələbəsi olmuşdum, məndən soruşsun ki, məsələn, "Xəyyam" xoşuna gəldimi? Mən "bəli" deyəndə, o da "bəs resenziyanı görmədim" desin. Belə deyən rejissorlar onda da var idi, indi də. Hətta mənimlə dost olanları da var. Bir də görürsən ərklə deyir ki, tamaşam haqda resenziya ilə mətbuatda çıxış et. Bəzən elə olub, mən də ölçünü itirib kompromisə getmişəm. Orta səviyyəli tamaşanı daha çox tərifləmişəm. Mehdi müəllim sənətkar kimi bunu umurdu, ancaq heç kəsə demirdi.

Bir dəfə Yeni il ərəfəsində Mehdi müəllimə zəng vurdum. Yeni ildə onun arzu-istəklərini soruşacaqdım. Həmin dövrdə də Azərbaycan Respublikası Dövlət Mükafatına layiq görülənlər adətən aprel ayında bəlli olurdu. Mehdi müəllimin quruluş verdiyi "Dəli yığıncağı" əsəri teatr tərəfindən bu mükafata təqdim edilsə də dövlət komissiyası tamaşanı müsabiqəyə buraxmamışdı. Mən də belə bir vaxtda zəng etmişdim. Salam verdim, salamımı almadı. Dedim ki, Mehdi müəllim, İlhamdı. Dedi ki, tanıdım. Bu cavabdan bir az tutuldum. Dedim: "Mehdi müəllim, İlhamdı, Rəhimli, "Kommunist" qəzeti..." Dedi ki, başa düşdüm, yəqin ikinci İlham Rəhimli yoxdur... Cavabında bir az kinayəli zarafat var idi. Dedim ki, sizə Yeni illə bağlı bir neçə sualım var. Bir qədər sükutdan sonra dilləndi: "Məsləhət deyil, gedin o sualları Dövlət mükafatı laureatı adını almış rejissorlara verin, biz kimik ki?". Hiss etdim ki, bərk inciyib. Çox-çox sonralar özü ilə söhbətindən öyrəndim ki, o vaxt mənim zəngimdən bir az əvvəl Mərkəzi Komitədən kimsə telefon açıb o mükafatla bağlı qanını qaraldıbmış.

Mehdi müəllim halal payını həm alıb, həm də almayıb. Onun xatirinə çox dəyiblər. Mehdi müəllimin 1968-ci ildə hazırladığı "Canlı meyit" tamaşası sənət nümunəsi kimi teatr ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildi. Sonra o, Cavidin "Xəyyam"ına müraciət etdi. Cavidşünaslar, Cavid teatrının tərbiyəsini görmüş yaşlı nəsil bu tamaşanı heyranlıqla qarşıladı. Ancaq təəssüflər olsun ki, həm "Canlı meyit", həm də "Xəyyam" dövlətin diqqətindən kənarda qaldı.

Fikrini həddən artıq konkret, yığcam, aydın və mənalı tərzdə ifadə edərdi. Deyəcəyi sözü yüz dəfə ölçüb-biçərdi. Onu tanıdığım neçə illər ərzində bir dəfə görmədim ki, hansısa sənət adamının, lap elə sıravi aktyorun arxasınca danışsın. Dedi-qodu anlayışı onun üçün tamam yad idi.

Bir dəfə Mehdi müəllimə çoxlu sualım var idi. Dedi ki, İlham, sənin vaxtın olanda mənim vaxtım olmur, mənim vaxtım olanda sənin. Gəl belə eləyək, sən suallarını yaz ver mənə, mən də cavabını yazım qaytarım sənə. Belə də elədik. Onun əlyazması indi də məndədir. Bir dəfə



yenə də ona müraciət etdim. Əvvəl yazımın sərlövhəsini dedim: "Yüz suala, yüz bir cavab". Bir az fikirləşəndən sonra dedi: "Belə əndrəbadi şeylər hardan ağlına gəlir? Yüz suala yüz bir cavab nədir?" Dedim: "Orada bir sual var, ona mütləq iki cavab verəcəksiniz". Və mən sualları Mehdi müəllimə verdim. 1985-ci il yanvarın 28-i isə ondan bu sualların cavabını alacaqdım. Zəngləşdik. Dedi ki, yarısı hazırdır, bu gün sənə verəcəyəm. Sonra da əlavə etdi ki, sizin redaksiyanın ("Xalq qəzeti"nin indiki binası) birinci mərtəbəsində bərbərxanada olacağam. Saçımı nizamlatmaq istəyirəm. Sən otağında ol, mən zəng vuranda düşərsən aşağı. Beşinci mərtəbədəki otağımda oturmuşdum. Qəzetin məsul katibi Alp Ağamirov zəng vurdu ki, tez üçüncü mərtəbəyə düş. Dedim: "Mehdi müəllimin zəngini gözləyirəm". O titrək səslə: "Daha Mehdi müəllim yoxdur... yanıma gəl" – dedi. Öyrəndim ki, Mehdi müəllim aşağıda bərbərxanada rəhmətə gedib. Aşağı düşdüm. Eldəniz Zeynalov, Mikayıl Mirzə, Mehdi müəllimin qardaşı oğlu Əsəd Məmmədov... orada idi. İki nəfər milis işçisi də gəlmişdi. Onlar istəyirdilər ki, cənazəni xəstəxanaya aparıb yardırsınlar. Alp Ağamirovla mən qəti etiraz etdik. Onda mənim respublikada bir az tanınan vaxtım idi. Biz tanışlarımızla əlaqə saxladıq, redaktor müavini Rəfael Nağıyev lazımi yerlərə zəng vurdu. Nəticədə cəsədinin yarılmasına yol verilmədi...

Mənim Mehdi müəllimə verdiyim suallar və onun cavabları isə yoxa çıxdı. Düzü, isti-isti heç yadıma düşmədi, sonra isə müəyyən adamlarla, oğlu Elçinlə əlaqə saxladım, ancaq gördüm deyən olmadı. Mən ustad sənətkarın SON ANLARINI öyrənmək üçün bərbərin yanına getdim. O dedi ki, Mehdi müəllim gəldi, salam verdi, stolun üstündə təzə qəzetlər vardı. Dedim ki, Mehdi müəllim, siz qəzet oxuyun, beş-on dəqiqəyə qurtarıram. O, qəzeti əlinə aldı. Mən də öz işimdə idim. Birdən tappıltı eşitdim. Çevrilib baxdım. Mehdi müəllim necə ayağa qalxmışdısa, oturduğu stul da yıxılmışdı. Qəzet əlində bir az dimdik, "qurumuş" vəziyyətdə dayandı və birdən ürəyini tutub yıxıldı...

Bax, beləcə, dünyadan qüdrətli bir sənətkar, gözəl bir insan getdi.

Biz yalnız üç nəfərin xatirəsini dinlədik. Təbii ki, o böyük sənətkarla bağlı ünsiyyətdə olan, birgə çalışan ürəyi dolu adamların hamısının söhbətini bir jurnal yazısında vermək də mümkün deyil. Əslində buna ehtiyac da yoxdur. Artıq çoxdan sübut olunmuşdur ki, Mehdi Məmmədov kimi qüdrətli sənətkarlar hər zaman dünyaya gəlmir. Odur ki, belə insanları vaxtında qiymətləndirmək, onların sağlamlığı qayğısına qalmaq, istedad və bacarıqlarından maksimum bəhrələnmək gərəkdir.

***Mehdi Əsədulla oğlu Məmmədov 1918-ci il mayın 22-də Şuşada anadan olmuşdu. A.V.Lunaçarski adına Moskva Dövlət Teatr Sənəti İnstitutunu bitirmişdi. 1940-1945-ci illərdə** Gəncə Dram Teatrının rejissoru olmuş, burada "Bahar" (M.H.Təhmasib), "Madrid" (M.İbrahimov), "Od gəlini", "Oqtay Eloğlu" (C.Cabbarlı), "Vaqif" (S.Vurğun), "Nizami" (M.Hüseyn), "Toy" (S.Rəhman) və s. əsərləri tamaşaya qoyulmuşdu.*

*M.Məmmədov 1946-cı ildən Azərbaycan Dövlət Dram Teatrının rejissoru (1960-1963-cü illərdə baş rejissor) və aktyor kimi fəaliyyət göstərmişdi. "On ikinci gecə" (V.Şekspir), "Rəqs müəllimi" (Lope de Vega), "Mehmanxana sahibəsi" (K.Qoldoni), "Alov" (M.Hüseyn), "Kəndçi qızı" (M.İbrahimov), "Canlı meyit" (L.Tolstoy), "Xəyyam" (H.Cavid), "İnsan", (S.Vurğun), "Meşşanlar" (M.Qorki), "Dəli yığıncağı" (C.Məmmədquluzadə) və s. tamaşaları Azərbaycan teatrı tarixində əhəmiyyətli yer tutur.*

*M.Məmmədov həmçinin Azərbaycan Dövlət Opera və Balet Teatrında Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Koroğlu", C.Cahangirovun "Azad", C.Puççinin "Toska" və s. əsərlərə quruluşlar vermişdi. 1953-1960-cı illərdə teatrın baş rejissoru, 1969-1976-cı illərdə Azərbaycan Teatr Cəmiyyətinin sədri, 1978-ci ildə Azərbaycan Dövlət Rus Dram Teatrının baş rejissoru olmuş, 1946-cı ildən Azərbaycan Dövlət İncəsənət İnstitutunda pedaqoji fəaliyyət göstərmişdi...*

Y.Hidayətoğlu

16088